Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun Müşahidə Şurasının 2009-cu il 25 noyabr tarixli iclasının qərarı ilə (Protokol №19) təsdiq edilmişdir

**Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına kreditlərin verilməsində müvəkkil kredit təşkilatı kimi iştirak etmək istəyən banklar və bank olmayan kredit təşkilatları üçün Fondun Müşahidə Şurasının müəyyən etdiyi**

# MEYARLAR

## BANKLAR ÜÇÜN:

- Kreditlərin verilməsi ilə bağlı əməliyyatların aparılmasına dair Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən verilmiş xüsusi razılığın (lisenziya) olması;
- Mərkəzi Bankının müəyyən etdiyi prudensial normativlərə riayət olunması;
- Kredit əməliyyatları ilə bağlı müntəzəm fəaliyyətinin olması;
- Vəsaitlərin regionlarda sahibkarlığın inkişafına yönəldilməsinə şəraitinin olması.

## BANK OLMAYAN KREDİT TƏŞKİLATLARI ÜÇÜN:

- Son 3 il ərzində kredit əməliyyatları ilə bağlı müntəzəm fəaliyyətinin olması;
- Son 2 ilin bütün hesabat rüblərində Mərkəzi Bankın müəyyən etdiyi prudensial normalara tam riayət olunması;
- Öhdəlikləri qarşılama qabiliyyətli olması;
- Kapitalının 300 min manat səviyyəsində və yuxarı olması;
- Üzvlərinin sayının azı 150 nəfər və daha çox olması;
- 200 manatdan aşağı paya malik olan üzvlər sayının bütün üzvlər sayının 50%-dən çox olmaması;
- Vəsaitlərin bir neçə rayonda sahibkarlığın inkişafına yönəldilməsinin mümkünlüyü;

- Vaxtı keçmiş borclarının olmaması;
- Kapital ehtiyatının nizamnamə fonduna olan nisbətinin 0.1-dən çox olması;
- Sənədlərin tərtibi və hesabatların hazırlanması üçün müvafiq kompüter və digər elektron vasitələrinin, aidiyyatı proqram təminatının olması;
- Müvafiq strukturun və kreditlərlə sərbəst işləmək qabiliyyətli olan kadrlarının olması;
- Təqdim olunan iqtisadi tənzimləmə normativlərinin (prudensial normativlər) Mərkəzi Bank tərəfindən təsdiq edilmiş olması.